**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN UNİVERSİTETİ**

# "AZƏRBAYCAN ƏDƏBİYYATI (5706.01)"

*ixtisası üzrə doktorantura pilləsində*
*İxtisas imtahanı proqramı*

**PROQRAM**

**Bakı – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN UNİVERSİTETİ**

# "AZƏRBAYCAN ƏDƏBİYYATI (5706.01)"

*ixtisası üzrə doktorantura pilləsində*
*İxtisas imtahanı proqramı*

## PROQRAM

*Azərbaycan Respublikası Təhsil Nazirliyi*
*Azərbaycan Universitetinin*
*Humanitar fənlər fakültəsinin Elmi Şurasının*
*31.03.2021-ci il tarixli (protokol №29 )*
*iclasında təsdiq edilmişdir.*

**Bakı – 2021**

**Tərtib edən:** **Ülviyyə Rəhimova**
*filologiya üzrə fəlsəfə doktoru,dosent*

**Redaktoru:** **Asif Hacıyev**
*filologiya elmləri doktoru, professor*

**Rəyçilər:** **Qorxmaz Quliyev**
*filologiya elmləri doktoru, professor*

**Hacıyeva Aytən**
*filologiya üzrə fəlsəfə doktoru,dosent*

**Proqramın aktuallığı:** proqram Azərbaycan ədəbiyyatı üzrə yüksək ixtisaslı mütəxəssis hazırlığının nəzəri məzmununu və gələcək elmi-tədqiqat və pedaqoji fəaliyyətdə tətbiqi üçün zəruri olacaq bilik, bacarıq və vərdişlərin sistemli məcmusunu ehtiva edir. Müasir sosial-mədəni durum filoloqdan yüksək peşəkarlıq səriştəsi tələb edir. Bu baxımdan fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün nəzərdə tutulmuş Azərbaycan ədəbiyyatı ixtisası üzrə imtahan proqramı tədqiqatçının nəzəri və praktik hazırlığını müəyyənləşdirməyə xidmət edir. Proqram baza tədris proqramları əsasında işlənib və doktorantların Azərbaycan ədəbiyyatşünaslığının mühüm anlayışlarına və müvafiq yaradıcılıq metoduna aid elmi məlumatı və bilikləri mənimsəmələri, peşəkar fəaliyyət növlərini həyata keçirmələri üçün zəruri olan tarixi-ədəbi və nəzəri-metodoloji məsələlər haqqında biliklərin müəyyənləşdirilməsini nəzərdə tutur.

**Proqramın konsepsiyası** elmi tədqiqatların və ali təhsilli kadr hazırlığının dinamik dəyişkənliyi şəraitində elmi-tədqiqat, təhsil və mədəniyyət sahələrində innovativ fəaliyyətə qabil olan mütəxəssis hazırlığı tələbinə əsaslanan və müvafiq ixtisas üzrə peşəkar elmi və pedaqoji fəaliyyət üçün zəruri olan aşağıdakı **kompetensiyaların** formalaşmasına, bilik və bacarıqların aşılanmasına yönəlib:

- Azərbaycan ədəbiyyatşünaslığı elminin nəzəri və metodoloji əsaslarının dərindən və sistemli öyrənilməsi;
- Ədəbiyyatşünaslığın tipoloji özünəməxsusluğunun və inkişaf qanunauyğunluqlarının mənimsənilməsi;
- Ədəbiyyatın nəzəriyyəsi, janr sistemi, poetikası, Ədəbiyyatşünaslığın tarixi, ən yeni elmi metod və məktəblər barədə sistemli biliklərin qazanılması;

- Azərbaycan ədəbiyyatının və o cümlədən ədəbiyyatşünaslığının təkamül mərhələləri, yaradıcılıq tipologiyası, məzmun və forma xüsusiyyətləri haqqında sistemli biliyin mənimsənilməsi;
- qazanılmış nəzəri biliklərin elmi-tədqiqat və pedaqoji fəaliyyətdə müstəqil tətbiqi bacarığı və vərdişləri;
- ədəbiyyatşünaslıq sahəsində müasir elmi nəticələrin tənqidi təhlili və qiymətləndirilməsi qabiliyyəti;
- elmi-nəzəri tədqiqat və təcrübi məsələlərin həllinə müstəqil yanaşma, yeni ideyaların generasiyası qabiliyyəti;
- Ədəbiyyatşünaslıq tədqiqatında sistemlilik və kompleks yanaşma qabiliyyəti, fənlərarası əlaqələr kontekstində filoloji və kulturoloji aspektli tədqiqat bacarığı;
- özünütəhlil, elmi-nəzəri və pedaqoji fəaliyyətin planlaşdırılması və peşəkar inkişafın təşkili qabiliyyəti;
- ədəbiyyatşünaslıq üzrə tədqiqatlarda elmi-fəlsəfi dünyagörüşü və universal nəzəri-metodoloji meyarlara əsaslanmaqla, müasir tədqiqat metodlarından və kommunikasiya texnologiyalarından istifadə bacarığı;
- araşdırılan materialın və elmi məqsədin səciyyəsinə uyğun tədqiqat metodunun seçilməsi və ya işlənməsi bacarığı;
- ali təhsil müəssisələrində müvafiq sahə üzrə pedaqoji fəaliyyət, tələbələrin elmi yaradıcılığının təşkili səriştəsi;
- elmi-tədqiqat layihələrinin, kollektiv araşdırmaların planlaşdırılması və icrası vərdişləri, müasir elmi paradiqmada fəaliyyət, inteqrasiya və tədqiqatın aktuallaşdırılması qabiliyyəti.

***Azərbaycan ədəbiyyatı tarixinin mərhələləri.*** Dövrləşmə problemi və onun prinsipləri Qədim Azərbaycan ədəbiyyatının əski çağlara aid məxəzləri və orta əsrlərin başlanğıcında meydana gələn mənbələri. Misir-şumer, yunan, fars, ərəb, Çin, Alban mətnlərində Azərbaycan ədəbiyyatı materialları. Yunan, ərəb, fars və b. dillərə çevrilən dini-fəlsəfi, ədəbi-tarixi abidələrimiz. Mixi yazılar, geliopol mətnləri və daş kitabələr. Təzkirə, salnamə, divan, cüng haqqında tədqiqatlar.

Folklordan yazılı ədəbiyyata keçidi şərtləndirən amillər. Azərbaycanda yazının meydana gəlməsi, miixtəlif əlifbalardan istifadə və bir əlifbadan başqasına keçilməsinin səbəbləri. Xalq ədəbiyyatımn poetik sisteminin, janr və şəkillərinin başlanğıcda hazır şəkildə yazılı ədəbiyyata transformasiyası. Folklor materialı və poetikası əsasında yazılı ədəbiyyatda yeni formalarının yaranıb inkişaf etdirilməsi. Xalq yaradıcılığı ilə yazılı ədəbiyyatın ideya-məzmun bağlılığı. Qədim Azərbaycan ədəbiyyatında folklorizm və xəlqilik. Folklor üslubu (stili) yazılı ədəbiyyatda. Folklor alleqoriyası, ifadə və təsvir vasitələri, mifik düşüncə tərzi, aforizm və inancları, xalq deyimləri, xalq şeri, xalq epik ənənəsi yazılı ədəbiyyatın tikinti materialı kimi.

Sənətkarın fərdiləşib kütlələr arasında fərqlənməsi və anonimlikdən çıxıb yazıçı, şair kimi yazı yaddaşında əbədiləşməsi. İlkin yazılı ədəbi nümunələrin müxtəlif dillərdə (yunan, pəhləvi/fars, ərəb, qrabar) olmasının səbəbləri. Qədim Azərbaycan ədəbiyyatının əsas ideya istiqamətləri, poetik forma və janrları. Qat, lay, çağırış, mərsiyə. Himn, şərqi, türkü. Əfsanə, rəvayət və nağıldan məsnəvi-poemaya doğru. Oğuznamə. Hekayət. Qəsidə, rübai, qəzəl.

***Ən qədim Azərbaycan ədəbiyyatı.*** E.ə. II minillikdə Azərbaycanın etnik tərkibi: prototürklər, lulublar, turikkilər, sular, kutilər (qutilər) və b. ilkin yazılı mənbələrdə. Manna dövləti və Kimmer-skit-sak padşahlığında yazı və dil. Mixi yazılarda qədim türk adları: İşquzların (iç oğuzlar) mixi yazılarda (e. ə. VIII yüzillikdə) Azərbaycan əhalisinin əsas tərkib hissəsi kimi xatırlanması.

Midiya dövrü ədəbiyyatı. Azərbaycan epik ənənəsinin ilkin nümunələri antik yunan mənbələrində. Tarixi rəvayətlərimizin yazıya alınması və yunan dilinə çevrilməsi. Herodotun "Tarix” kitabında Azərbaycan ədəbiyyatı materialları.

«Astiaq» və «Tomris» dünya xalqlarının ədəbiyyatında. Çex alimi və yazıçısı Rudolf Mertlikin «Antik əfsanə və söyləmələr» kitabında «Astiaq» və «Tomiris»ə üz tutması. «Məhşur padşah Kir» bədii-tarixi oçerkində Astiaq, Harpaq, Tomiris, Krez və Kir obrazlarına münasibət.

Əfsanələrdə süjet qurmaq ustalığı. Dialoqlar və təsvirlər. “Avesta” qədim azərbaycanlıların ən əski dini, fəlsəfi, ədəbi abidəsi kimi. Atəşpərəstlərin dini kitabında ədəbiyyat materialları. «Zənd Avesta»da zaman, məkan və insan problemi

***Erkən orta əsrlərdə Azərbaycan ədəbiyyatı.*** Ortaq türk ədəbiyyatının ilkin yazılı başlanğıcı. Esik kurqanında yatan Altun geyimli şahzadə və qızılları kölgədə qoyan mis tabaq. Onun üzərində 26 hərfdən ibarət iki sətirlik yazı. Əski türk runik yazısının və türk dilli yazılı ədəbiyyatın doğum günü (e. ə 500-cü il).

Türk dilli ədəbiyyatın meydana gəlməsinin ərəfəsi və amilləri. Ortaq türk yazılı ədəbiyyatının ilk nümunələri. Çin mənbələrində Hun dövrü şairlərindən (e.ə. II əsrin 1-19-cu ilinə aid) parçalar. Turfan, Hoço və Dunhuanda aşkarlanan əski türk şerlərində Göy tanrısına tapınma. «Tan tanrı gəldi» himnində Günəş, Ay, Səhər obrazları. Dörd böyük tanrıya müraciətlər. Burqan və Mani insanlar arasında. «On dürlü yaxşılığın mədhi» qəsidəsində canlılara faydalı olmaq və doğru yol, düzlüyə çağırış motivləri. Kaüm Qeysin lirik şerləri və Ki-Kinin-İstiqrakın (Xəyala dalma) 240 misralı əsəri. Aprtnçur Tigin və Üçlük şer şəldi yazılı ədəbiyyatda.

Əski türk poeziyasının Avropa və Rusiyada araşdırılması. V.Vradilovun «Altay şairlərinin danışıq formaları» (1866), F.E.Korşun «Türk qəbilələrinin əski xalq şerləri» (1909). T.Kovalskinin «türk xalqları şerinin öyrənilməsi» (1921) əsərlərində türk xalq poeziyasının ilkin yazılı mənbələrindən söz açılması. Y.V.Steblevnın «VI-VIII əsrlər türklərin poeziyası» kitabı (1965) ilə gerçəkləşən həqiqətlər. Azərbaycan və türk ədəbiyyatşünaslığında Türk xalqlarının yazılı ədəbiyyatıınn ortaq başlanğıcı ideyasının qoyuluşu.

Daş kitabələr: Yenisey məzar daşı yazıları. Orxon abidələrinin quruluşu. Onlarda dastan motivləri. Dünyanın yaranması barədə mifik təsəvvürlər. Göy türklər, oğuzlar və uyğurlar. Gül Tigin və Bilgə Kağanın türk tayfalarını birləşdirmək arzuları. Mətnlərdə yazıçı təxəyyülü və təsvir ustalığı. Poetik fiqurlar və onların işlənmə məqamları. Daş kitabələrdə mifopoetik rəqəmlər.

Balasaqunlu Yusif və onun «Kutatqu bilik» məsnəvisi. Əsərin janrı. Qaynaqları. Quruluşu.

Mahmud Kaşğarlı və onun «Divan-i Lüğətit-türk» əsəri. Türk dilində yazılan mətnlər. Qədim və orta əsrlər dövrü ortaq türk ədəbiyyatında xalq epik ənənəsi və xalq şer formalarından istifadə.

Oğuznamələr. Oğuznamə bədii yaradıcılıq məhsuludur, yoxsa tarixi-xronika? Oğuznamə folklora, yoxsa yazılı ədəbiyyata aiddir? Oğuznamə xüsusi janrdır, yoxsa epik növün dastan, epos, yaxud nağıl janrının bir forması?

F.Rəşidəddinin «Cəmü ət-təvarix» («Ümumi tarix», yaxud «salnamələr toplusu») əsərində qədim «Oğuznamə» mətninə müraciət. Oğuznamələr və Azərbaycan. «Kitabi-Dədə Qorqud» türkdilli ilkin yazılı abidələrdən biri kimi. Dastanın əlyazma nüsxələrinin nəşri və tədqiqi. «Kitab»ın quruluşu. Müqəddimə və boylar. Kitab üslubuna keçmək meylləri. Dil və üslub xüsusiyyətləri. Azərbaycan dili və xalqının təşəkkülünün başa çatması (III-VIII əsrlər).

VII əsrin sonu VIII əsrin əvvəllərində ərəbcə yazıb-yaradan «məvali şairlər»: İsmayıl ibn Yəssar, Musa Şəhəvat, Əbül-Abbas Əl-Əma.

***XI-XII əsrlərdə Azərbaycan ədəbiyyatı.*** Ərəb dilli Azərbaycan poeziyasının zəifləməsi. Əbu Nəsr Mənsur ibn Mumkan Təbrizi, Xəttat Nizami Təbrizi və İskafı Zəncaninin ictimai mövzularda şerləri. Məhəbbət mövzusu və təbiət təsvirləri.

Azərbaycanda saray şerinin meydana gəlməsinin amilləri. Səlcuqilərin ədəbiyyat və incəsənətə böyük qayğı ilə yanaşması. Təhsilin kütləviləşdirilməsi. Şərqdə ilk ali təhsil

ocağının - Nizamiyyə mədrəsəsinin (universitetinin) açılması. Ədəbiyyatşünaslıq. Ərəb dilli poeziyanın şərhi. Təfsirlərin meydana gəlməsi və ədəbi-nəzəri fikrin, tənqidin formalaşması. Azərbaycanda Şirvanşahlar və Atabəylər dövlətinin yüksəlməsi. İntibah ideyalarının yayılması. Saraylarda ədəbiyyata, şerə xüsusi rəğbətlə yanaşılması. Şərq intibahı və Azərbaycan. XI-XII yüzilliklərdə Azərbaycan ədəbiyyatında yeniləşmə meylləri. Şərq intibahını şərtləndirən amillər. Bəşəriyyətə böyük elmi kəşflər, nadir sənət və ədəbiyyat abidələri verən tarixi dövrün səciyyəsi. Keçmişdə qazanılan nailiyyətlərə maraq. Təhsilin kütləviləşdirilməsi. Hökmdarların elmə və ədəbiyyata qayğı ilə yanaşmaları. Dinin mütərəqqi və dünyəviliyinin şərhi. Antik yunan fəlsəfəsinin, elminin və ədəbiyyatının müsəlman dünyasında yayılması. İsveç alimi Adam Metsin "İslam intibahı" (1922) əsəri. Azərbaycan intibahının nümayəndələri. Qədim dövr Azərbaycan ədəbiyyatında epik şerin meydana gəlməsi və onun Ümumşərq poeziyasına təsiri. Azərbaycan ədəbiyyatında məsnəvi yazan şairlər.

Poeziyada təriqətçilik. Qədim Azərbaycan ədəbiyyatında sufizm meylləri. Təriqətçiliyin tarixi kökləri və mahiyyəti. Ədəbiyyatla bağlanan orden və qardaşlıq cəmiyyətləri. Sufizm - Şərq şerinin, bədii fikrinin sürətlə inkişafını şərtləndirən əsas amillərdən biri kimi. Türk təriqətçiliyi.

Xaqani Şirvaninin tədqiqatçıları (B.Fruzanfər, Rifaqatulla xan, M.Sultanov, Q.Kəndli və b). «İnciyib, incitməyən» şairin ədəbi irsinin janr sistemi və mövzu dairəsi. Xaqani qəsidə ustası kimi. Mədhnamələrində tarixi gerçəklik.

İctimai-fəlsəfi məzmunlu qəsidələri. «Mədain xərabələri» qəsidəsində zəmanədən şikayət. Mədaini dünyanın ibrət aynası kimi göstərməsi. Sasanilərin sarsılmasının səbəbləri Xaqaninin prizmasında. Kufə və Bağdadın yüksəlişini qanunauyğunluq kimi verməsi. Zərdüştü Məhəmmədlə, atəşpərəstliyi islamla, bülbülü bayquşla, nəğməni növhə ilə qarşılaşdırması. «Qəsideyi Şinniyyə» (Meratüs-səfa) adının şərhi. İnsan və onun mənəvi aləmi. İki insan tipinin müqayisəsi: dərviş və sultan Şairin sufilik və əxiliklə (sənət və peşə adamlarının qardaşlığı) əlaqəsi. «Həbsiyyə şerləri». «Töhvətül İraqeyn» ilk Azərbaycan məsnəvisi kimi. Janr əlamətləri. Səyahətnamə-memuar ədəbiyyatı, yoxsa ictimai, fəlsəfı, lirik poema? Xaqaninin «Töhvətül-İraqeyn» əsərinin ədəbi-tarixi əhəmiyyəti.

Şirvan və Gəncə ədəbi-ictimai dairəsi. Şirvanşahlar sarayına yaxın şairlər. Əbül-Üla Gəncəvi, Əbu ən Nizam Məhəmməd Şirvani, Əmir İzzəddin Şirvani, Fələki Şirvaninin şerlərində dünyəvi hislərin tərənnümü.

Atabəylər sarayına yaxın şairlər: Əbu-Bəkr ibn Xosrov əl-Ustad, Zahir əd-Din Şəmkuri, Mücirəddin Beyləqani, Əsir əd-Din Axsikati, Şərəf əd-Din Şafruli, Zahir əd-Din Faryyabi və Qivami Mütərizinin əsərlərində mübarizlik ruhu.

Nəsr yaradıcılığı. Xosrov əl-Ustad və onun “Munisnamə” əsəri. Dünyanın quruluşu haqqında ilkin təsəvvürlər. Xızır mifik obrazını müxtəlif tərəflərdən səciyyələndirən epizodlar.

“Munisnamə”nin Azərbaycan ədəbiyyatı tarixində yeri və rolu.

Məhsəti Gəncəvi. Dövrü və həyatı haqqında mülahizələr. Məhsəti Şərqdə ilk azadfikirli şair qadın və rübai ustası kimi. Əsərlərinin dünyəvi mahiyyəti və əsas xüsusiyyətləri. Mayası humanizm və nikbinliklə yoğrulan dörd misralıq şerlər.

Nizami Gəncəvi lirikasının xüsusiyyətləri. Nizaminin «Divan»ı haqqında mülahizələr. Əldə olan şerlərinin mənbələri. Qəsidələri: mədhiyyə və fəxriyyə. İctimai, fəlsəfi, əxlaqi mövzuya müraciət. Hökmdar və cəmiyyət, mühit və fərd, elm və din, ağıl və zaman problemlərinin qoyuluşu. Rübailərində inkar və təsdiq motivləri. Şərqdə ilk «Xəmsə». Epik ənənədə yeni formaların tapılması. İnsan və zaman mövzusunda yazılan məsnəvilər silsiləsi.

***Anadilli ədəbiyyatın təşəkkülü.*** XIII əsrdə Səlcuqlu xanədanının süqutu və farsdilli ədəbiyyatın çöküşü ilə yeni siyasi-mədəni mühitin formalaşması. Anadilli ədəbiyyatın tədricən pərvəriş etməsi. İ. Həsənoğlunun şerləri. Şeyx Səfi Divanı, "Qara dəftər". İlk anadilli yazılı abidələrin meydana gəlməsi, "Kitabi Dədə Qorqud" və digər Oğuznamələrin yazıya alınması

Divan ədəbiyyatının janrları. Divan ədəbiyyatının əsas səciyyəsi və tərtib prinsipləri. Klassik Divanların tərtib prinsipləri, divanların Dibaçəsi, janr ardıcıllığı, Qəzəl, qəsidə, rübai, məsnəvi və s. əsas janr xüsusiyyətləri, Divan ədəbiyyatının vəzn prinsipləri, Əruz vəzninin özəllikləri.

İlk anadilli divanın müəllifi Qazi Bürhanəddin divanının ədəbi-tarixi özünəməxsusluğu, tərtib prinsiplərindəki fərqli cəhətlər, şerlərinin qafiyə prinsipləri, cinas qafiyələr.

***XIII-XIV əsrlər farsdilli ədəbiyyat*** ənənəsinin davametmə səbəbləri, Ədəbi-tarixi ənənəvi istiqamət üzrə yaradıcılıq axtarışlarının davam etməsi, Nizami ədəbi təsirinin öz qüvvəsini saxlaması, bir sıra Klassik Şərq mövzularının (“Leyli və Məcnun”, “Xosrov və Şirin”, “Vamiq və Əzra”, “Yusif və Züleyxa”, “Mehr və Müştəri” və s.) mövzularındakı ədəbi qəliblərin fars dilində olması amili, Marağalı Əhvədi, Zülfüqar Şirvanlı, Hümam Təbrizi. Farsdilli ədəbiyyatın əsas yaradıcılıq istiqamətləri. Farsdilli ədəbiyyatda saray ədəbiyyatı ənənələrin davam etməsi. Dini təriqət mövzusunun getdikcə poeziyada güclənməsi, Şeyx Mahmud Şəbüstərinin fəlsəfi təliminin ədəbiyyatda getdikcə güclənməsi, Nizami epik ənənəsi, Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Əlişir Nəvai və s. Azərbaycan ədəbiyyatında 13-16-cı yüzilliklərdə Arif Ərdəbili, Əssar Təbrizi, Marağalı Əvhədi, Məhəmməd Füzuli.

***Təsəvvüf ədəbiyyatının təşəkkülü və əsas səciyyəsi.*** Tarixi-siyasi şərtlər və şərait, IX əsrdə islam mühitində baş verən hadisələr və onların fəlsəfi inikası, Əl- Qəzalinin bu sahədəki ilk təlimləri, Təsəvvüfün əsas səciyyəsi, onun ana qaynağının Qurani-kərim motivləri ilə səsləşməsi, “Vəhdətil-Vücud”(Allahla vəhdət) dünyagörüşünün mühafizəkar islami dünyagörüşlə səsləşməsi və fərqlilikləri, “Vəhdətil-Vücud” fəlsəfəsinin 4 mərhələsi. Rəmzi-məcazi obrazlara müraciət və onların səbəbləri, fəlsəfi və ədəbi düşüncədə təsəvvüf simvolikasının yaranma səbəbləri, Təsəvvüf dünyagörüşünün türk arealına gəlişi (XI- XII), Əhməd Yəsəvinin ilk sistemli fəaliyyəti, yəsəvilik təriqəti, Divani-hikmət əsəri, təsəvvüfüdən doğan sufi təriqətləri (Bəktaşilik, ələvilik, nəqsbəndilik və s.)

Mahmud Şəbüstərinin (XIII- XIV əsrlər) fəlsəfi təlimi, “Gülşəni- raz” əsəri, əsərdə təsəvvüfün mahiyyəti, ilk qoyulmuş on beş sual və onların əhatəli şərhi, Bu fəlsəfi mənzumənin özündən sonrakı təsəvvüf ədəbiyyatına təsiri, XIII-XIV əsrlər Azərbaycan ədəbiyyatında ilk təsəvvüf şairləri İzzəddin Həsənoğlu, Şah Qasim Ənvar, Şeyx səfi Ərdəbili, Qazi Bürhanəddin və s.

XIII-XIV əsrlərdə hürufilik təliminin meydana gəlməsi, Fəzlullah Nəiminin “Caviddannamə” əsəri, Vəhdəti-mövcudat fəlsəfəsi, onun Vəhdəti-vücud fəlsəfəsi ilə oxşar və fərqli cəhətləri, Hərf simvolikası, bu simvolikanın yaranmasının zərurəti və səbəbləri, hürufi poeziyasının fəlsəfəsində ərəb hürufatı rəmzlərindən və əbcəd hesabından geniş istifadənin forma və üsulları. Nəsiminin fəlsəfi və bədii görüşləri, türk, fars və ərəb dillərində poetik yaradıcılığı Nəsimi poeziyasında hürufi simvolikasının yeri. Nəsimi qəzəllərinin poetik xüsusiyyətləri. Nəsiminin irfani məzmunlu şerlərində müxtəlif fəlsəfi-dini fikir qatları, Nəsimi poeziyasında xalq şeri ənənəsi, Nəsimi yaradıcılığının ədəbi təsir dairəsi.

***XV əsr Azərbaycan ədəbiyyatı.*** Dövrün əsas xüsusiyyətləri, Ağqoyunlu və Qaraqoyunlu xanədanının hakimiyyəti dövründə ədəbi-mədəni mühit.

XV əsrin siyasi hadisələri nəticəsində Ağqoyunluların mərkəzi, Şərqi Diyarbəkirdən Təbrizə köçməsi ilə bağlı ədəbi-mədəni mühitin Təbrizdə mərkəzləşməsi. Uzun Həsən və Sara Xatunun ədəbi-mədəni mühitin inkişafında rolu. Həmidi, Həbibi, Həqiri, Şah Qasım Ənvər, Nemətulla Kişvəri, Cahanşah Həqiqinin poetik irsi. Cahanşah Həqiqi sərkərdə şair

kimi. XV əsr Azərbaycan ədəbiyyatında cığatay-nəvai təsirinin güclənməsi və onun səbəbləri.

Nemətulla Kişvərinin “Divan”ı. Şairin Ağqoyunlu, daha sonra isə Səmərqənd hökmdarları ilə əlaqəsi. Bu mövzudakı şerləri. Sultan Yaqub dönəmində Azərbaycanda şer və sənətə olan himayənin zəifləməsi. Azərbaycan ədəbiyyatında cığatay təsiri. Kişvərinin “Divan”ı, Həqirinin “Leyli və Məcnun” poeziyasının əsas özəlliyi.

Xətai və anadilli ədəbiyyat. Əruz vəzni və qoşma üslubunun yaxınlaşması. Xətainin heca vəznli şerləri. Füzulinin yaradıcılığının əsas yönləri. Qəzəlləri, poemaları, nəsri, tərcümələri, sənətkarlığı.

***XVI-XVII əsrlər Azərbaycan ədəbiyyatı.*** Bu dövrdə xalq üslubunun güclənməsi. Məhəmməd Əmaninin heca vəznində şerləri, qoşma, gəraylı və bayatıları. M.Əmani bayatılarının xalq bayatılarından fərqi. Şairin klassik üslubda yazdığı qəzəlləri. Fədainin “Bəxtiyarnamə” əsəri. “Bəxtiyarnamə” əsəri XVII əsr epik şerinin əsas nümunələrindən biri kimi.

***XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı.*** XVII əsrin sonu XVIII əsrin əvvəllərindəki tarixi-mədəni hadisələrin ədəbiyyata təsiri. Səfəvilərin süqutundan sonra vahid Azərbaycanın xanlıqlara bölünməsi, Əfşarlar və Qacarlar dönəminin mədəni-tarixi prosesləri. Bu tarixi mərhələdə tədricən region ədəbi mühitlərinin formalaşmağa başlaması. (Qarabağ, Şəki, Gəncə, Lənkəran, İrəvan, Tiflis və s.) Sözügedən çevrələr içərisində Qarabağ ədəbi mühitinin xüsusi yeri. Şuşa ədəbi tarixi mühiti. XVIII Azərbaycan ədəbiyyatında xalq şeri üslubunun güclənməsi xanlıqlar dövrü və regional

ədəbi mühitlərin təşəkkülü. Qarabağ. Şəki, Təbriz-Qaradağ, Şirvan ədəbi mühitləri.

XVIII əsrdə xalq şeri üslubu və divan ədəbiyyatı ənənələrinin vəhdətdə inkişaf prinsipləri üzərində inkişaf tapmış klassik şair Vidadi və klassik poetik ənənələr. Vidadi və aşıq ədəbiyyatı. Vidadi və Füzuli poetik kədərləri arasında oxşar cəhətlər. "Müsibətnamə" əsəri mərsiyə-poema nümunəsi kimi. Vidadi və Vaqif poeziyalarının qarşılıqlı əlaqələri. Vaqif şeri və Divan ədəbiyyatı. Vaqif və xalq şeri ənənələri. Vaqif qoşmalarının xəlqiliyi və realizmə yaxınlığı. Vaqif irsinin toplanması, nəşri təcrübəsi.

***XIX əsrin ilk illərində maarifçi realizmin poetik xüsusiyyətləri.*** realist-tənqidi yaradıcılıq metodu, ədəbiyyatşünaslıqda maarifçi realizm və tənqidi realizm konsepsiyaları, maarifçi-tənqidi realizmdə tipikləşdirmə və ümumiləşdirmə, satira və faciəvilik pafosu, yeni qəhrəman axtarışları, mövzu və təsvirin həyatiliyi, yeni konfliktlər, "atalar və oğullar" konflikti, dilin xəlqiliyi, sadəliyi, fərdiliyi və sairə. Qasım bəy Zakir, Mirzə Şəfi Vazeh, Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirovun maarifçi-realist yaradıcılığında bilik və ədalət meyarları əsasında cəmiyyətin islahına inam, maarif, tərbiyə, təlqin vasitəsilə ictimai münasibətləri kamilləşdirməyin mümkünlüyünə olan utopik əminlik. Azərbaycan maarifçi-tənqidi realizminin qaynaqları: realist səpgili xalq yaradıcılığı və aşıq poeziyası, ümumtürk ədəbiyyatındakı realizm ənənələri, Avropa və Rusiya maarifçi ədəbi-fəlsəfi fikri və realizmi.

***Milli mətbuat orqanlarının maarifçi və tənqidi realist ədəbiyyatın inkişafında rolu.*** Maarifçilərin ictimai və ədəbi fəaliyyətində milli mətbuatın əhəmiyyəti. Qafqazda ilk türkdilli mətbu nümunələr: "Tiflis əxbarı" (1832) qəzeti və "Zaqafqazski vestnik" qəzetinə "Qafqazın bu tərəfinin xəbəri" (1845) adlı əlavədə. Anadilli ilk peşəkar qəzetin, "Əkinçi"nin (1875-1877), nəşrə başlaması. "Əkinçi" qəzetində maarifçi ideyaların təbliği, yeni mətbu orqanların yaranmasında rolu. Mətbuatda ana dilinin istifadəsi, yeni məzmunun yeni formada ifadəsi. Milli mövzuların aktuallaşdırılması, maarifçi mətbuatın əsasının qoyulması. Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa görkəmli ədiblərin əməkdaşlıq etdiyi "Əkinçi" qəzetində milli mədəniyyət, maarif, elm və sənət, qadın azadlığı və təhsili kimi məsələlərin işıqlandırılması, nadanlıq, cəhalət, mövhumata qarşı etirazın ifadəsi. Bu dövrdə rusdilli mətbuat orqanlarının ("Bakinski listok" (1871), "Bakinskiye izvestiya" (1876), "Kaspi" (1897)) maarifçi ideyaların təbliğində rolu. "Əkinçi"dən sonra nəşr olunan yeni anadilli mətbuat orqanları: "Ziyayi-Qafqaziyyə" (1879-1880), "Kəşkül" (1883-1891).

***XX əsrin əvvəllərində fərqli ictimai-ideoloji və ədəbi mövqe tutan mətbuat nümunələri:*** "Şərqi-rus", "Molla Nəsrəddin", "Füyuzat", "İqbal", "İrşad", "Məzəli", "Tuti", "Bəsirət, "Zənbur", "Məktəb", "Dəbistan", "Həyat", "Babayi-Əmir", "Kəlniyyət", "Tazə həyat", "İttifaq", "Səda", "Sədayi-vətən", "Sədayi-həqq", "Sədayi-Qafqaz", "Şəlalə" kimi mətbuat orqanlarının maarifçilik ideyalarının yayılmasında, maarifçi və tənqidi realizmin, eləcə də romantizmin inkişafında əhəmiyyəti.

“Füyuzat” və füyuzatçıların (Əli bəy Hüseynzadə, Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq) romantik yaradıcılığında maarif və tərəqqi ideyaları.

“Molla Nəsrəddin” jurnalı (1906-1918-ci illərdə Tiflisdə (340 sayı), 1921-ci ildə Təbrizdə (8), 1922-1931 illərdə Bakıda (400) nəşr edilib) və mollanəsrəddinçilər hərəkatı. Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Ömər Faiq Nemanzadə, Əliqulu Qəmküsar, Mirzəli Möcüz, Əli Nəzmi, Əli Razi Şamçızadə, Bayraməli Abbaszadə və başqaları mollanəsrəddinçilər məktəbinin nümayəndələri kimi. Mollanəsrəddinçilər məktəbinin maarifçilik ideyalarının təbliğində və tənqidi-realist yaradıcılıq metodunun, satirik pafos və üslubun inkişafında rolu. Mollanəsrəddinçilərdə sosial ədalət və bərabərlik ideyaları. Milli istiqlal və bütöv Azərbaycan anlayışı, “Vətənim haradır” sualı, milli istiqlal ideyaları. Ana dili və milli mənlik məsələsi. İctimai ziddiyyətlərin təhlili və qüsurların tənqidi.

Mollanəsrəddinçilərin tənqidi-realist yaradıcılığında maarifçi ideyaların yeni məzmunda və üslubda ifadəsi: nadanlıq, cəhalət, xurafat, ədalətsizlik, əsarət və sairə kimi ictimai bəlaların müasiri olduqları naqis cəmiyyətin mahiyyəti kimi təqdim edilməsi, satirik-tənqidi tərzdə ifşası və inkarı.

***Azərbaycan maarifçi ədəbiyyatının yaradıcılıq xüsusiyyətləri.*** Azərbaycan maarifçi ədəbiyyatının estetik və ideoloji meyarları: zəkaya əsaslanan gerçəkçilik və materializm, gerçəkliyi ağıl və təcrübəyə uyğun təsvir etmək, ideala yönəlmək, azadlıq və ədalət ideallarının tərənnümü, bilik və ədalətə əsaslanan cəmiyyət modeli, insanların azadlığı və

bərabərliyi amalı, eyni zamanda utopiklik, tarixi prosesi mexanikləşdirmək. M. F. Axundovun, A. A. Bakıxanovun ictimai-fəlsəfi baxışları, cəmiyyət və ədəbiyyat konsepsiyası.

Maarifçi-tənqidi realizmin janr tipologiyası – dram, komediya, faciə, tragikomediya, satirik şer, publisistika, hekayə, povest, roman, felyeton, məktub, reportaj, təfriqə, fəlsəfi risalə və s.

Azərbaycan maarifçilərinin fəaliyyət və yaradıcılığında ictimai-mədəni məram: milli dirçəlişdə təhsilə və elmə verilən önəm, yeni əlifba, mətbuat və məktəb (üsuli-cədid) məsələsi. Dini xurafata və cəhalətə qarşı mübarizə, demokratlıq və tolerantlıq, sosial bərabərlik və ədalət ideyaları, qadın azadlığı və hüquqları məsələsi, məişətdə və ailə münasibətlərində müasirlik, əsarətə etiraz və istiqlalçılıq.

Seyid Əzim Şirvani, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Sultanməcid Qənizadə, Yusif Vəzir Çəmənzəminli, Məmməd Səid Ordubadi, Ömər Faiq Nemanzadə yaradıcılığında və dünyabaxışında milli tarix, mənəvi dəyərlər, mədəniyyət və təhsil, cəmiyyət və şəxsiyyət, azadlıq və bərabərlik haqqında düşüncələr.

Maarifçilikdə milli məsələ və milli burjuaziyanın dəstəyi. Maarifçi yaradıcılığın və fəaliyyətin kütləviliyi, sosial funksionallığı, teatr, yeni məktəb və mətbuatın ictimai əhəmiyyəti.

***Maarifçi realist dramaturgiya, realist nəsr və poeziya.*** Azərbaycan dramaturgiyasının və maarifçi realizmin banisi M. F. Axundzadənin ədəbi fəaliyyətinin səciyyəsi, realizmin

təşəkkülündə əhəmiyyəti. Onun komediyalarının Azərbaycan ictimai fikrinin və ədəbiyyatının təkamülündə yeri. Komediyaların ideya-məzmun və forma xüsusiyyətləri. Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Nəriman Nərimanovun, Süleyman Sani Axundovun, Rəşidbəy Əfəndiyevin pyesləri, Üzeyir Hacıbəyovun musiqili komediyaları və səhnəcikləri maarifçi dramaturgiyanın nümunələri kimi. Bu əsərlərdə cəmiyyətdəki ziddiyyətlərin təsviri, klassik maarifçiliyə xas "atalar və oğullar" fabulası əsasında ictimai ziddiyyətlərin tənqidi, yeni ideyaların təbliği.

Cəlil Məmmədquluzadənin tənqidi-realist ("Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı"), Hüseyn Cavidin romantik ("Şeyx Sənan", "İblis", "Səyavuş", "Xəyyam") pyeslərində maarifçilik ideyalarının təzahürü. Maarifçi-realist dramaturgiyanın bədii xüsusiyyətləri – janr, üslub, dil, süjet və kompozisiya özəllikləri.

Maarifçiliyin Azərbaycan bədii nəsrinin təşəkkülündə rolu. Maarifçi-realist nəsrin ilk nümunələrinin-Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib" povesti və "Kəmalüddövlə məktubları" fəlsəfi risaləsinin ideya-məzmun və bədii xüsusiyyətləri. Azərbaycan romanının ilk nümunələri - Nəriman Nərimanovun "Bahadur və Sona" və Əbdürrəhim Talıbovun "Kitab yüklü eşşək", Məmməd Səid Ordubadinin "Bədbəxt milyonçu" romanları maarifçilik ideyalarının ifadəçisi kimi. Əbdürrəhim bəy Haqverdiyevin bədii nəsrində yeni qəhrəman, süjet və üslub xüsusiyyətləri. Personajların təhlili üsulları, psixologizm, fabulanın inkişafı. Sultan Məcid Qənizadənin "Məktubati-Şeyda bəy Şirvani" əsərində yeni obraz və mənəvi keyfiyyətlərin təsvir və tərənnümü, bilik,

savad və mərifət anlayışlar. Yazıçının "Kilidli ədəbiyyat" dərsliyi. Nəcəf bəy Vəzirovun hekayələrində və "Balaca mütəfərriqələr" silsiləsində gerçəkliyin, qəhrəmanların mənəvi-etik və sosial-ictimai dəyərlər baxımından təhlili, satirik münasibət və realist tipikləşdirmə. Süleyman Sani Axundovun "Qorxulu nağıllar" silsiləsində milli dəyərlər ifadəsi və xarakterlərin təsviri, əsərlərin didaktik aspekti. Yazıçının "hekayələrində əxlaq, tərbiyə, milli mənlik anlayışlarının, bilik, təhsil, təlim və tərbiyənin vətəndaşın yetişməsində rolunun təsbiti. İbrahimbəy Musabəyovun povestləri sosial-ictimai problematikanın, maarifçi ideyaların ifadəsi baxımından. Üzeyir Hacıbəyovun satirik hekayələrində məişətdə və insan xislətində izlənən naqisliklərin yumorlu təsviri, eyham və gülüşün səciyyəsi. Cəlil Məmmədquluzadə, Yusif Vəzir Çəmənzəminlinin, Məmməd Səid Ordubadinin, Abdulla Şaiqin, Mir Cəlalın, Sultan Məcid Qənizadənin, Seyid Hüseyn Sadiqin, Eynəli bəy Sultanovun nəsrində maarifçilik idealları, xəlqilik, həyatilik, tarixilik meyarları, sosial ədalət, bərabərlik, bilik və elm, dünyəvilik, millilik ideyaları.

Maarifçilərin klassik poeziyaya münasibəti, M.F.Axundov və Məhəmməd Füzuli, klassik nəzm və yeni şer məsələsi, yeni, sosial-siyasi məzmunun aktuallaşması, ənənəvi poetik formalarla yeni motivlərin tərənnümü. Klassik və yeni şer formalarında maarifçi fikir və məzmunun ifadəsi. Bilik, savad, dünyəvi təhsil, insan şəxsiyyətinin azadlığı ideyaları, həyatiliyin, tipikləşdirmənin artması, gerçəklikdən gələn təsvir və tərənnüm vasitələri, yeni məcazlar. Maarifçi-realist metodun qərarlaşması. Sabir poeziyasının siyasi-ictimai, sosial-mənəvi, etik-əxlaqi məzmun çalarları. Poetik dilin, obrazlar sisteminin,

motiv və ideyaların prinsipcə yeniləşməsi, gerçəkliyə satirik-tənqidi münasibət, mövcud sosial-ictimai və məişət mühitinin ifşası və inkarı. Yeniliyə, biliyə, savada, elmə, ədalət və bərabərliyə çağırış. Maarifçi və tənqidi realizm meyarlarının Sabir poeziyasında çulğaşması, poeziyanın ictimai funksiyalarının önə çıxması. Dil və üslubun fərdiləşməsi, poetik leksikanın mühit və xarakterlərin səciyyəsinə uyğunlaşması. Sabirdə bəşəri ideyaların milliliklə qovuşması və mətnlərin oxucunu fəallaşdıraraq yeniliyə yönəltməsi. Sabirin mollanəsrəddinçilər məktəbinin nümayəndəsi kimi səciyyəsi: qadın hüquqları və azadlığı, sinfi bərabərlik, sosial ədalət, eyni zamanda milli istiqlal ideyalarının ifadəsi. Romantik və istiqlalçı şairlər Hüseyn Cavid, Abdulla Şaiq, Abbas Səhhət, Məhəmməd Hadi, Əhməd Cavad, Cəfər Cabbarlı poeziyasında maarifçilik ideyalarının təzahürü.

***Azərbaycan humanitar fikrində ədəbiyyatşünaslığın yaranması.*** M.F.Axundovun tənqidi yaradıcılığı və estetik baxışları onun ictimai-siyasi görüşlərinin tərkib hissəsi kimi. Axundovun ədəbi görüşlərində elmi dünyagörüşlə ədəbi praktikasının vəhdəti. Mirzə Kazım bəyin estetik görüşləri. Mirzə Kazım və M.F.Axundov. Firudin bəy Köçərli Azərbaycan ədəbiyyatının ilk sistemli tarixinin yaradıcısı kimi.

***Azərbaycan mühacirət ədəbiyyatı***. Milli ictimai-ədəbi fikrin tərkib hissəsi olan Azərbaycan mühacirət ədəbiyyatının yaranması, formalaşma və inkişaf yolu. mühacirət ədəbiyyatının səciyyəvi cəhətləri, ideya-məzmun və poetika-sənətkarlıq baxımından inkişaf meylləri, qüdrətli söz ustalarının özünəməxsus bənzər yaradıcılıq axtarışları haqqında. “Azərbaycan yurd bilgisi” məcmuəsində və ayrı-ayrı

kitablarda mühacirət ədəbiyyatının təbliği və folklorun, klassik irsin tədqiqi məsələləri. Mühacirət ədəbi-bədii irsinin, sovet dövründən fərqli olaraq, hazırda elmi əsasda öyrənilməsi və bu sahədə meydana çıxan əsərlərin dəyərləndirilməsi problemləri.

***Legion ədəbiyyatı mühacirət ədəbiyyatının tərkib hissəsi kimi.*** İkinci Dünya müharibəsi illərində mühacir müəlliflərin davam edən yaradıcılıqlarında SSRİ-nin dağılması və vətənin azad olunması arzusunun ifadəsi.

***Azərbaycan ədəbiyyatının və ədəbiyyatşünaslığının sovet dövrü:*** 1920-30-cu illərin ideoloji sistem dəyişikliyi və ədəbi proses, proletkultçuluq ideyası və Leninin iki mədəniyyət konsepsiyası, proletar ədəbiyyat və cığırdaşlar. Sosialist realizmi ədəbiyyatşünaslığın əsas yaradıcılıq prinsipi kimi. Repressiya dövründə Azərbaycan ədəbiyyatı. Konfliktsizlik nəzəriyyəsi. "60-cılar ədəbiyyatı" anlayışı. Bu dövrdə ədəbiyyatşünaslıqda yeni düşüncə tərzinin formalaşması. Qərb estetik fikrin Azərbaycan ədəbiyyatşünaslığına təsir xüsusiyyətləri.

***Azərbaycan ədəbiyyatşünaslığı müasir dövrdə*** Son onillikdə–müstəqillik dövründən başlayaraq ədəbiyyatın inkişaf meylləri, səciyyəvi cəhətlərinin izlənilməsi; Əsərlərin ideya-məzmun xüsusiyyətlərinin cəmiyyət, qlobal dünya problematikasına uyğun araşdırılması; Poetika baxımından inkişaf, yeniliklərini müəyyənləşdirilməsi, Epik-analitik, şərti-metaforik və s. üslubların romantik və realist əsərlərdə işlənməsi. Posmodernist üslub tərzinin ədəbi əsərlərdə təzahür xüsusiyyətləri. Azərbaycan ədəbiyyatşünaslığında maarifçilik, maarifçi realizm, tənqidi realizm, didaktik realizm anlayışları, ədəbi dövrləşdirmə meyarları və təsnif təcrübəsi (Feyzulla

Qasımzadə, Yaşar Qarayev, Arif Hacıyev, İsa Həbibbəyli, Qorxmaz Quliyev, Arif Əmrahoğlu).

**Ədəbiyyat**


1. Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə, II cild, Bakı, 1960.
2. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. B., Elm, 2006.
3. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. Bakı, Elm, 1985.
4. Azərbaycanda məşhur olan şüəranm əşarına məcmuədir. /Tərtib edəni: Hüseyn Əfəndi Qayıbov/. I cild, Bakı, 1986, Ilcild, Bakı, 1989.
5. Azərbaycanın aşıq və şair qadınları. Bakı, 1974.
6. Arash Həmid. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Gənclik. Bakı, 1998
7. Bağırov Ə. S.Ə.Şirvani və məktəb, Bakı, 1986.
8. Baxşəliyev O. Mirzə Melkum xan, Bakı, 1986.
9. Bayramoğlu A. Azərbaycan mühacirət mətbuatına dair mühazirələr (1923-1991). Bakı,2004.
10. Cabbarlı N. Azərbaycan mühacirət nəsri.Bakı,2014.
11. Cabbarlı N. Azərbaycan mühacirət poeziyası (İcmallar və portretlər).Bakı,2014.
12. Cəfərov C. Azərbaycan dram teatrı, Bakı, 1959.
13. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. Üç cilddə, Icild, Bakı, 1981.
14. Əfəndiyev H. Azərbaycan bədii nəsri tarixindən, Bakı,1963.
15. Həbibbəyli İ. Maarifçilik və realizm. Dövrləşmə konsepsiyası və inkişaf mərhələləri // 525-ci qəzet, 16.12.17

16. Həbibbəyli İ. Tənqidi realizm epoxası və romantizm. Dövrləşmə konsepsiyası və inkişaf mərhələləri // 525-ci qəzet, 23.12.17
17. Həbibbəyli İ.. XX əsrin əvvəlləri Azərbaycan yazıçıları. Bakı, Nurlan, 2004
18. Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər, Bakı, 2002
19. Qarayev Y. Faciə və qəhrəman, Bakı, 1965.
20. Qarayev Y. Realizm: sənət və həqiqət, Bakı, 1980.
21. Qarayev Y. Realizm: sənət, həqiqət. Bakı, "Elm", 1980
22. Qarayev Y. Tarix: Yaxından və uzaqdan, Bakı, 1996.
23. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, Bakı, 1974.
24. Quliyev Q, Rəhimova Ü. XX əsrin görkəmli ədəbiyyatşünas alimləri. Bakı, 2013,
25. Quliyev Q. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları. Bakı, 2012,
26. Quliyev Q. Ədəbin cərəyanlar və istiqamətlər. Bakı, 2018
27. Quliyeva M. Klassik Şərq poetikası, Bakı, 1991.
28. Məmmədov Ə. Azərbaycan bədii nəsri. XIX əsrin sonu XX əsrin əvvəlləri, Bakı, 1983.
29. Mir Cəlal, Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı, Bakı, 2007
30. Mustafayev M. XIX əsr Azərbaycan realist şeri, Bakı, 1991.
31. Piriyev Y. XIX əsr Azərbaycan ədəbiyyatında poema, Bakı, 1984.

32. Vəlixanov N. Azərbaycan maarifçi realist ədəbiyvatı, Bakı, 1983.
33. «Dədə Qorqud» ensiklopediyası. İki cilddə. Bakı, - Azərbaycan Dövlət Nəşriyyatı, 1999.
34. Hacıyev Tofiq. Dədə Qorqud: dilimiz, düşüncəıniz. - Bakı, Elm, 1999.
35. Kitabi-Dədə Qorqud. Tərtib, transkripsiya, sadələşdirilıniş vaıiant və müqəddimə Fərhad Zeynalov və Samət Əlizadənindir. - Bakı, Yazıçı, 1988.
36. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. - Bakı, Yazıçı, 1993.
37. Rüstəmova Azadə, Klassik Azərbaycan poeziyasında qəzəl. - Bakı, Elm,1990.
38. Səfərli Ə. və Yıısifov X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. - Maarif, Bakı, 1982. Yeni nəşri, Bakı, 1998
39. Şərifzadə Baloğlan. Azərbaycan ədəbiyyatı tarixi (ən qədim dövrlər), B., Adiloğlu, 2003. B., Ozan, 2008.

Yığıma verilmişdir: 09.01.2021
Çapa hazırlanmışdır: 04.02.2021
Kağız formatı 60x84  1/16
Ofset üsulu ilə çap edilmişdir.
Şərti ç.v. 1.5